**TƏSDİQ EDİRƏM**

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri**

**__________________prof. Famil Mustafayev**

**“_____”________________2019-cu il**

**5716.01 - Azərbaycan ədəbiyyatı ixtisası üzrə fəlsəfə doktoru imtahanının**

# P R O Q R A M I

## 1. Qədim dövr Azərbaycan ədəbiyyatı

Qədim dövr Azərbaycan ədəbiyyatının əsas mərhələləri və inkişaf xüsusiyyətləri. Azərbaycan xalqının ilkin mifoloji görüşləri. Əmək nəğmələri şifahi ədəbiyyatın qədim janrı kimi. Divan ədəbiyyatı və onun xüsusiyyətləri. Təzkirəçilik ənənələri. “Avesta” və onun tərkib hissələri. Əsərin tədqiqi tarixi. Alban-Arran mədəniyyəti.

Ərəbdilli poeziyanın yaranması. Türk-islam mədəniyyətinin formalaşması. Məvali şairlər.

Ümumtürk ədəbi abidələri və onun tədqiqi. Orxon-Yenisey kitabələri.

M.Kaşğarlinin “Divani lüğət-it türk” əsərində ədəbi-bədii mətnlər.

Yusif Balasağunlunun “Qutadğu bilig” əsəri. Poemada türkçülük məfkurəsi. Obrazların tipologiyası.

“Kitabi-Dədə Qorqud” şifahi və yazılı ədəbiyyat nümunəsi kimi. Oğuz mədəniyyəti. Dastanın quruluşu, ideyası və tədqiqi.

XI-XII əsrlər Azərbaycan ədəbiyyatı. Saray şerinə yeni baxış.

Qətran Təbrizi, Əbülüla Gəncəvi, Fələki Şirvani və digər sənətkarların yaradıcılığı.

Sufi ədəbi məktəbi və onun yaranmasının ictimai-tarixi səbəbləri. Sufizmin mahiyyəti. Baba Kuhi Bakuvi, Şihabəddin Sührəverdi, Eynəlqüzzat Miyanəçi kimi sənətkarlar. Şührəverdi və onun «Işraqiyyə» fəlsəfəsi. Onun elmi-fəlsəfi əsərləri. Eynəlqüzzat Miyanəçi filosof-şair kimi. Şairin sufi-panteist görüşləri.

X.Təbrizinin elmi-nəzəri görüşləri.

Məhsəti Gəncəvinin həyat və yaradıcılığı. Şəhrəşub şeirinin onun poeziyasında yeri.

Xaqani Şirvaninin həyatı, dövrü və mühiti. Şairin fəlsəfi qəsidələri. X.Şirvani Azərbaycan ədəbiyyatında ilk poema müəllifi kimi. «Töhfətül-Iraqeyn» ədəbiyyat tariximizdə ilk süjetli poema kimi. Müəllifin əsərlərində humanizm, vətənpərvərlik, mübarizlik ruhunun pafosu. Onun poeziyasında ictimai zülmə və ədalətsizliyə qarşı etiraz. “Münşəat”, onun nəşri və tədqiqi tarixi.

Nizami Gəncəvi poeziyası ilkin Azərbaycan İntibahının zirvəsi kimi. Nizami irsinin öyrənilməsi tarixi. Şairin lirikası. Divanı ilə bağlı fikirlər. Nizami “Xəmsə” yaradıcısı kimi. Şairin poemalarında dövlət və onun idarə olunması, demokratiya, humanizm məsələləri. Nizami Gəncəvi yaradıcılığında qadına yeni münasibət. Insanın mənəvi təkamülü. “İsgəndərnamə” şairin epik yaradıcılığının zirvəsi kimi. Nizami irsinin tədqiqi .

## 2. Orta dövr Azərbaycan ədəbiyyatı

XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatı. Anadilli lirik və epik əsərlərin yaranması. İ.Həsənoğlunun həyat və yaradıcılığı. İ.Həsənoğlu haqqında Dövlətşah Səmərqəndinin qeydləri. Azərbaycan və fars dillərində fərqli təxəllüslərlə divanlar yaratması. Onun bizə gəlib çatan şeirləri. İ.Həsənoğlu poeziyasında təsəvvüf ideyaları. Dünyəvi məhəbbətlə ilahi eşqin vəhdəti.

“Quran” motivləri epik poeziyada, Əlinin “Qisseyi-Yusif”, S,Fəqihin “Yusif və Züleyxa”, Y.Məddahın “Vərqa və Gülşa” poemaları.

“Dastani-Əhməd Hərami” poeması. Əsərin quruluşu və məzmunu. Türkiyədə və Azərbaycanda öyrənilməsi.

Nizami ədəbi məktəbinin davamçıları. Dünya, Şərq və Azərbaycan ədəbiyyatında Nizami ənənələri.

Təriqət ədəbiyyatının yaranması. Təsəvvüf simvolikası. İşraqiyyə, həllaciyyə, hürufizm təriqətləri.

Hürufi təlimində insan anlayışı. Dünyanın “ol” əmrindən yaranması haqqında dini-fəlsəfi görüşlər. Allahın digər varlıqlarda(təbiətdə, əşyada, insanda) təcəssümü. Hürufi ideyalarının genişlənməsi və başqa ölkələrə də yayılması.

İ.Nəsiminin poeziyasında eşq anlayışı. Kamil insan konsepsiyası. Nəsimi yaradıcılığının təsir dairəsi.

Q.Bürhanəddin ana dilində ilk divan müəllifi kimi. Divana daxil olan şeirlərin janrları. Şairin qəzəllərinin özünəməxsus xüsusiyyətləri: təxəllüsünün işlənməməsi. Tuyuğlarında mübarizlik, nikbinlik, şuxluq, həyata bağlılıq hisslərinin tərənnümü. Q.Bürhanəddinin poeziyasının sənətkarlıq xüsusiyyətləri. Şairin həyat və yaradıcılığının öyrənilməsi, nəşri və tədqiqi məsələləri.

XV-XVI əsrlər Azərbaycan ədəbiyyatının əsas inkişaf istiqamətləri. Azərbaycan xalqının ictimai-siyasi, eləcə də mədəni və ədəbi həyatında yeni bir mərhələ. Xəlili, Süruri, Bəsiri, Şah Qasım Ənvər, Bədr Şirvani, Hamidi, Mirzə Cahanşah Həqiqi, Kişvəri, Həbibi kimi şairlərin XV əsr ədəbiyyatının formalaşmasında rolu. Onların yaradıcılığına yığcam baxış. İctimai dövr və epik şeir. Dövrün epik poeziyasının mövzu və janr xüsusiyyətləri.

Şah İsmayıl Xətainin həyat və yaradıcılığı. Azərbaycan dilində divanı. Fars və ərəb dillərində şeirləri. Divan ədəbiyyatına xalq şeiri janrlarını gətirməsi. Klassik və xalq şeiri üslubunda yazdığı şeirlərin problematikası. Xətainin məhəbbət lirikası. Dünyəvi və dini-fəlsəfi şeirləri. “Nəsihətnamə” poemasının ideya-məzmun xüsusiyyətləri. Əsərin yazılma səbəbləri. Əsərdə sufi-panteist görüşlərin təbliği. “Dəhnamə” poeması. Əsərin mövzu və süjeti. Rəmzi obrazların dilindən verilən qəzəllər. Əsərdə təsəvvüf ideyaları.

M.Füzuli orta dövr Azərbaycan şerinin zirvəsi kimi. Şairin Azərbaycan və fars dillərində divanı. Lirik poeziyasında təsəvvüf motivləri. Qəsidələr divanı.

M.Füzulinin epik yaradıcılığı. Poemalarında dini-ürfani ideyalar. Sənətkarlıq xüsusiyyətləri. “Leyli və Məcnun” poeması. Əsərdə lirizm və ictimai-fəlsəfi məzmun. İlahi və dünyəvi eşqin obrazlı ifadəsi. Obrazların təhlili. Leyli orta əsrlər Azərbaycan qadınının siması kimi. Məcnunun tarixi şəxsiyyət olması haqqında mülahizələr. Əsərdə əxlaq məsələləri, adət və ənənənin bədii təcəssümü. Poemanın poetik məziyyətləri. Füzuli anadilli bədii nəsrin banisi kimi. “Şikayətnamə” Azərbaycan ədəbiyyatında ilk satirik nəsr əsəridir. M.Füzuli irsinin Azərbaycanda və xaricdə öyrənilməsi.

“Bəngü-Badə” ilk irihəcmli əsəri kimi. “Yeddi cam” lirik-fəlsəfi poema kimi. “Söhbətül-əsmar” alleqorik poeması.

Füzulinin nəsri. “Hədiqətüs-süəda” bədii-dini nəsrin örnəyi kimi.

XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı. Poeziyada realizm və xəlqiliyin güclənməsi. Anadilli ilk mənzum hekayələrin yaranması. M.Əmani, Fədai, Məsihi və başqa sənətkarların yaradıcılığı. Saib Təbrizi, Qövsi Təbrizi Füzuli ədəbi məktəbinin davamçıları kimi.

M.V.Vidadinin həyatı və poetik irsi. “Müsibətnamə” tarixi mənzuməsi.

M.P.Vaqifin həyat və yaradıcılığı . M.P.Vaqivin həyatı və mühitinə nəzər. M.V.Vidadi ilə dostluq əlaqələri. M.P.Vaqiflə M.V.Vidadi yaradıcılığında oxşar və fərqli məqamlar. “Durnalar” şeiri hər iki şairin yaradıcılığında. Şairin poeziyamıza gətirdiyi yeniliklər. Heca və əruz vəznində yazdığı şeirlər. Vaqif erkən maarifçiliyin nümayəndəsi kimi. Şairin poeziyasında nikbinlik və bunun başlıca səbəbləri. Vaqifin lirik şeirlərində sosial motivlər.

XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında bədii nəsr nümunələri. Möhsün Əbdülhamid Nasirinin “Lisanüt-teyr” (“Quşlann dili”) əsəri “Tutinamə” kimi. Mövzunun hind ədəbiyyatı ilə bağlılığı və ənənəvi mövzuda yazılması. Nasirinin əsərinin başqa “Tutinamə”lərlə oxşar və fərqli cəhətləri. Onun hekayələrində bədii təzad və müqayisələrdən istifadə. Əsərin didaktik mahiyyəti.

Məhəmmədin “Şəhriyar” dastanı. Dastanın ideya-bədii xüsusiyyətləri. “Şəhriyar” dastanında orta əsr qadını və onun taleyi məsələsi.

Nəsr əsərlərində millilik və realizm meyillərinin yeni vüsət qazanması.

### 3. XIX əsr Azərbaycan ədəbiyyatı

Maarifçilik cərəyanının yaranması. Ilk maarifçilər: M.Kazımbəy, A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı və başqaları. Bu dövrdə yaranan bədii nəsr nümunələri. Azərbaycan və Qərbi Avropa ədəbi əlaqələrinin inkişafında M.Ş.Vazehin rolu.

Abbasqulu ağa Bakıxanov Qüdsinin həyatı və mühiti, rəsmi diplomatik fəaliyyəti. “Divani-hikmət” məclisindəki rolu. Avropaya və Yaxın Şərqə səfərləri. A.Bakıxanovun bədii yaradıcılığında maarifçi-realist istiqamət.Farsca və Azərbaycanca şeirləri. “Riyazül-qüds” əsəri, “Mişkatül-ənvar” və “Müratül-cəmal” poemaları. “Kitabi-Əsgəriyyə” hekayəsinin ideya-bədii xüsusiyyətləri. Təmsil, rübai və mənzum hekayələrinin özünəməxsus keyfiyyətləri.

İ.Qutqaşınlının həyatı, mühiti, “Rəşid bəy və Səadət xanim” hekayəsi. Əsərin obrazlar aləmi və ideya-məzmun xüsusiyyətləri. Azad sevgi ideyası. Rəşid bəy və Səadət xanım surətlərinin təhlili. Hekayədə milli məişətin, adət-ənənənin təsviri. Ədibin “Səfərnamə” əsərinin nəşri və tədqiqi tarixi.

Satirik poeziyanın yaranması. Satirik şerin əsas nümayəndələri. M.B.Nadim, B.Şakir, Q.Zakir və başqa sənətkarların satirik poeziyası.

Qasım bəy Zakirin dövrü, mühiti və həyatı. Şairin yaradıcılığında realizm. Lirik və epik poeziyası. Tənqidi-satirik şeirləri. Zakir yaradıcılığında Vaqif və Füzuli ədəbi ənənələri.

S.Ə.Nəbatinin həyat və yaradıcılığı. Poeziyasında təsəvvüf motivləri. Dini-ürfani görüşlərindəki ziddiyyətlər.

XIX əsrin ikinci yarısında ədəbiyyat. Dövrün ədəbi-mədəni səciyyəsi.

M.F.Axundovun həyat və yaradıcılığı. Şərq-Qərb ədəbi-estetik fikrinin qovuşmasında M.F.Axundovun rolu. Onun çoxşaxəli yaradıcılığı. M.F.Axundov Azərbaycan ədəbiyyatında dramaturgiyanın və tənqidi-realist nəsrin banisi kimi.

M.F.Axundovun dramaturji yaradıcılığı. Komediyalarının başlıca xüsusiyyətləri.

“Aldanmış kəvakib” povesti. Əsərin ideya-məzmun xüsusiyyətləri və dili. Maarifçilik ideyaları. M.F.Axundovun yeni əlifba yaratmaq uğrunda mübarizəsi. Onun ədəbi-estetik

görüşləri. Fəlsəfi-publisistik fəaliyyəti. “Kəmalüddövlə məktubları” əsərinə yeni baxış. M.F.Axundov Azərbaycan ədəbiyyatında yeni ədəbi məktəbin banisidir. Onun davamçıları.

Milli mətbuatın yaranması və inkişafı. “Əkinçi” qəzeti. Qəzetin əsas müxbirləri. H.Zərdabinin həyatı və yaradıcılığı.

Ədəbi məclislər və onların fəaliyyəti. Ədəbi prosesdə məclislərin rolu. “Beytüs-səfa”,“Məclisü-üns”, “Məclisi-fəramuşan”, “Fövcül-füsəha”, “Əncüməni-şüəra”, “Məcməüş-şüəra” ədəbi məclislərinin fəaliyyəti. Məclislərin başçıları və fəal üzvləri: S.Ə.Şirvani, X.Natəvan, M.Nəvvab, M.İ.Qasir və b.

Milli teatrın yaranması və inkişafı. Bu yönümdə H.Zərdabi, N.Vəzirov və digər ziyalıların rolu. Bu dövrdə yeni dramatik janrların ilk nümunələrinin (faciə, tarixi-faciə, dram, alleqorik pyes, vodevil və s.) yaranması.

S.Ə.Şirvani. Həyat və yaradıcılığı. Lirikasında Füzuli ənənələri. Şairin satirik- tənqidi şeirləri. Satiralarında əsas tənqid hədəfləri. S.Ə.Şirvaninin əxlaqi-didaktik poeziyası. Maarifçilik görüşləi. Şairin ədəbi irsinin öyrənilməsi tarixi.

Nəcəf bəy Vəzirovun həyat və yaradıcılığı. Ilk qələm təcrübələri. Sənətkarın dramaturgiyası. Komediyalarının ideya-bədii xüsusiyyətləri. Dramaturqun dramları və iqtibasları. Publisistik fəaliyyəti. “Müsibəti-Fəxrəddin” ədəbiyyatımızda ilk faciə kimi. əsərin ideya-məzmun xüsusiyyətləri və əsas obrazları.

Məhəmməd Bağır Ağa Xalxalinin həyatı və bədii yaradıcılığı: lirikası, epik-lirik əsərləri. “Sələbiyyə” əsəri. “Sələbiyyə”nin ənənəvi mövzulardan fərqi, əxlaqi-didaktik əhəmiyyəti.

Mirzə Mehdi Şükuhinin həyatı və yaradıcılığı. Lirikası. “Nəsihəti-Cəlali”, “Marağaya səfər”, “Meymuniyyə” və “Münazireyi-Əqlü Eşq” adlı epik-lirik əsərləri.

## 4. XX əsr Azərbaycan ədəbiyyatı

XX əsrin əvvəllərin də Azərbaycanda ictimai-siyasi vəziyyət və ədəbi proses. Bu dövrdə tənqidi-realizm, romantizm, maarifçi, realist və sentimentalist ədəbi cərəyanların yaranması.

Milli mətbuatın inkişafı. “Molla Nəsrəddin “ ədəbi məktəbi və molla nəsrəddinçilər.

“Füyüzat” jurnalı. Romantik ədəbiyyatın inkişafında jurnalın rolu. Ə.Hüseynzadə və türk dünyası. Milli şüurun oyanmasında “Molla Nəsrəddin” və “Fyüzat” jurnallarının rolu.

Cəlil Məmmədquluzadə. Həyat və yaradıcılığı. Azərbaycan ədəbiyyatına gətirdiyi yeniliklər. C.Məmmədquluzadənin bədii nəsri. ədib kiçik janrın böyük ustadı kimi. Hekayələrinin bədii xüsusiyyətləri. Cəlil Məmmədquluzadənin dramaturji fəaliyyəti. “Ölülər”, “Anamın kitabı”, “Dəli yığıncağı” tragikomediyaları. “Anamın kitabı”nda vətən,xalq və ana dili problemi.Sənətkarın publisistik fəaliyyəti. “Azərbaycan” məqaləsi. Cəlil Məmmədquluzadə və Azərbaycançılıq.

Mirzə Ələkbər Sabirin həyatı və yaradıcılığı. Şairin poeziyasında ənənə və novatorluq. Mirzə Ələkbər Sabir yeni ədəbi məktəbin banisi kimi. Şairin satiralarının əsas mövzusu, ifşa üsulları.Sabirin taziyanələri. Sənətkarın poeziyasında türkçlük məfkurəsi. “Hophopnamə” nin nəşri. Şairin poeziyasına yeni baxış. Mirzə Ələkbər Sabir ədəbi irsinin öyrənilməsi.

Mirzə Ələkbər Sabir ədəbi məktəbinin davamçıları. Ə.Nəzmi, Ə.Qəmküsar, M.Ə.Möcüz, B.Abbaszadə və başqaları. Ə.Nəzminin həyat və yaradıcılığı. “Şərqi-Rus”qəzetində ədəbi-publisistik fəaliyyəti. Əli Nəzmi və “Molla Nəsrəddin”jurnalı. Əliqulu Qəmküsarin həyatı. .Qəmküsar yaradıcılığında Sabir satirik ənənələri. Bayraməli bəy Abbaszadə tanınmış mollanəsrəddinçi şair kimi.

Mirzə Əli Möcüzün həyatı və mühiti. Möcüz Cənubi Azərbaycanda Sabir ənənələrinin davamçısı kimi.

Əbdürrəhim bəy Haqverdiyevin nəşri və dramaturgiyası. Sənətkarın faciə janrında yazdığı əsərləri haqqında mübahisələr.

Maarifçi realist ədəbiyyat və onun əsas mahiyyəti. Maarifçi realist ədəbiyyatın nümayəndələri: S.S.Axundov, A.Şaiq, S.Qənizadə və başqa sənətkarların yaradıcılığı.

S.S.Axundovun bədii yaradıcılığı. Hekayələrində maarifçilik, yeniliyə çağırış motivləri. "Qorxulu nağıllar" silsilə hekayələri. "Qorxulu nağıllar"da folklor ənənələri. Xeyirxahlıq və humanizm "Qorxulu nağıllar"ın başlıca ideyası kimi. Bu hekayələrin Azərbaycan uşaq nəsrində yeri.

Nəriman Nərimanovun həyat və yaradıcılığı. Nəsri və dramaturgiyası. "Nadir şah" ədəbiyyatımızda ilk tarixi faciə kimi.

M.S.Ordubadi Sabir ədəbi məktəbinin görkəmli nümayəndələrindən biri kimi. Onun gizli imzaları, satirik şeir və felyetonları.

S.M.Qənizadənin həyatı və müəllimlik fəaliyyəti. Ədəbi yaradıcılığı. "Məktubati-Şeyda bəy", "Allah xofu", "Qurban bayramı" və s. povest və hekayələri.

"Allah xofu", "Qurban bayramı" əsərlərində mənəvi ziddiyyətlərin təsviri.

Zeynalabdin Marağayinin yaradıcılıq yolu. Ədibin həyatı və mühiti. Yaradıcılığında vətənpərvərlik duyğularının əsas yer tutması. "Səyahətnameyi-İbrahim bəy" romanı realist nəsrin nümunəsi kimi.

Romantik ədəbiyyatın əsas nümayəndələri.

XX əsr Azərbaycan romantizminin özünəməxsus xüsusiyyətləri. "Füyuzat" jurnalında azadlıq, milli-dini birlik və türkçülük ideyaları. Romantik ədəbi məktəbin nümayəndələri: Ə.Hüseynzadə, H.Cavid, A.Səhhət, A.Şaiq, M.Hadi, A.Sur, Ə.Ağaoğlu və b. Onların yaradıcılıqlarının əsas ideya məfkurəsi. Romantizm və sovet ədəbiyyatı.

Abdulla Şaiqin həyatı və mühiti. Ədibin ilk şeirləri. Humanizm, bəşəri ideyalar, romantik ruh bu şeirlərin başlıca xüsusiyyətləri kimi. A.Şaiqin yaradıcılığında romantizmlə realizmin qovuşması. Nəsrində realist-maarifçi ideyalar. Ədibin roman povest və hekayələri.

Məhəmməd Hadinin ədəbi irsi. Hadi yaradıcılığında azadlıq, millilik və bəşərilik ideyaları.

Abbas Səhhətin həyat və yaradıcılığı. Poemaları və dramaturgiyası. Şairin Azərbaycan uşaq ədəbiyyatının inkişafında rolu.

Hüseyn Cavidin həyatı. Yaradıcılığının ilk dövrü. Lirikası və ilk pyesləri. "Şeyx Sənan" faciəsi Hüseyn Cavid yaradıcılığının ilk dövrünün zirvəsi kimi.

Sentimentalist ədəbiyyat. Onun b aşlıca xüsusiyyətləri və nümayəndələri. A.Divanbəyoğlunun, Ə.Naxçıvaninin ədəbi irsi.

XX əsr Azərbaycan ədəbi tənqidi. F.Köçərli Azərbaycan ədəbiyyatı tarixini sistemləşdirən ilk tənqidçi kimi. A.Surun tənqidçilik fəaliyyəti.

## 5. Müasir Azərbaycan ədəbiyyatı

Hüseyn Cavidin romantik yaradıclığının ikinci mərhələsi. "Peyğəmbər", "İblis", "Topal Teymur", "Səyavuş" və digər pyesləri. Daramturqun yaradıcılığında bəşəri ideyalar, tarixilik və müasirlik. Hüseyn Cavid və sovet gerçəkliyi. Sənətkarın ədəbi irsinin öyrənilməsi və nəşri tarixi.

Cəfər Cabbarlı. Dövrü, mühiti və həyatı. Sənətkarın poeziyası və nəsri. Cəfər Cabbarlının dramaturji yaradıcılığı. "Vəfalı Səriyyə", "Solğun çiçəklər" pyesləri.

Ədibin dramaturgiyasında Türkiyə. "Ədirnə fəthi", "Trablis müharibəsi" dramları. "Bakı müharibəsi" faciəsi və əsərin taleyi.

Cəfər Cabbarlının romantik pyesləri: "Aydın", "Oqtay Eloğlu", "Od gəlini" pyeslərinin ideya-məzmun xüsusiyyətləri. "Od gəlini" müəllifin romantik yaradıcılığının yekunu kimi.

Sənətkarın "Almaz", "Sevil", "1905-ci ildə" və digər əsərləri. Sovet gerçəkliyinin Cabbarlı yaradıcılığında inikası.

Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığı. Bədii nəsri. Kiçik hekayələrdən irihəcmli romanlara keçid. “Studentlər”, “Qızlar bulağı”, “Qan içində” romanları. “Qızlar bulağı”nda mifoloji qaynaqlar. “Qan içində” əsərində tarixi həqiqətlər.

“Əli və Nino” romanı. Mübahisələr və həqiqətlər.

Mikayıl Müşfiqin lirik və epik yaradıcılığı. Poeziyasının əsas xüsusiyyətləri. Şairin ədəbi irsinin tədqiqi. Şairin şeir kitabları. M.Müşfiqin poemaları.

Səməd Vurğunun həyat və yaradıcılığı. Şairin ədəbi mühiti, fəaliyyəti. Yaradıcılığında milli düşüncə, əxlaq, mənəviyyat məsələləri. Fəlsəfi və romantik üslublu yaradıcılığı. Şairin məhəbbət, fəlsəfi və təbiət lirikası. Səməd Vurğunun poema yaradıcılığı. Poemalarının janr və sənətkarlıq xüsusiyyətləri.

Səməd Vurğunun dramaturgiyası. Onun dram əsərlərində mühit və şəxsiyyət problemi. Sənətkarın ədəbi-tənqidi görüşləri. Səməd Vurğun və sosialist realizmi prinsipi.

Süleyman Rüstəmin həyat və yaradıcılığı. Şairin lirik, epik və dramatik əsərləri. Sovet ideologiyasının Süleyman Rüstəm yaradıcılığına təsiri. Şairin poeziyasının alt qatında milli təəssübkeşlik.

Süleyman Rəhimovun bədii irsi. Hekayələri. “Saçlı” romanında həyat həqiqətlərinin bədii əksi. “Aynalı” povesti və “Qafqaz qartalı” romanında tarixə müraciət, xalqın taleyinin, psixologiyasının, adət-ənənəsinin əksi.

Məhəmmədhüseyn Şəhriyarın həyat və yaradıcılığı. Azərbaycan və fars dillərində əsərləri. “Heydərbabaya salam” poeması. Poemada milli özünüdərk, xəlqilik və milli intibah.

Rəsul Rzanın ədəbi irsi. Şairin poeziyasında ənənə və novatorluq. Poemalarında vətəndaşlıq ləyaqəti. Zaman və insan talelərinin bədii inikası.

Mehdi Hüseynin nəsri və dramatik yaradıcılığı. Yazıçının ictimai fəaliyyəti. Ədəbi-estetik görüşləri. Dramaturgiyası.

İlk qələm təcrübələri. İlk irihəcmli əsəri – “Daşqın” romanında qaldırılan problemlər. “Tərlan” romanında kənd həyatının təsviri, yeni həyat uğrunda mübarizə. “Abşeron”, “Qara daşlar”, “Yeraltı çaylar” dənizə axır” trilogiyasının ideya-mövzusu, obrazlar aləmi.

Mirzə İbrahimovun dramaturgiyasında Cəfər Cabarlı ənənələri. “Gələcək gün”,”Pərvanə” və “Böyük dayaq” romanları. Yazıçının yaradıcılığında Cənubi Azərbaycan

Əli Vəliyevin nəsrin də publisistik meyil. Əsərlərində erməni vandalizminin ifşası.

Mir Cəlalın həyat və yaradıcılığı. Hekayələrində Cəlil Məmmədquluzadə və Ə.Haqverdiyev ənənələri. “Dirilən adam”,”Bir gəncin manifesti” romanları.

Sabit Rəhmanın komediyaları. Kərəmovçuluq və onun tənqidi. Dramaturqun əsərlərində komik vəziyyətlər.

İlyas Əfəndiyevin həyat və yaradıcılığı. Ədibin nəsri və dramatik əsərləri. İlyas Əfəndiyevin yaradıcılığında lirik-psixoloji üslubun aparıcı mövqe tutması. Pyeslərində konflikt və xarakter məsələsi.

Mir Cəlal Paşayevin həyat və yaradıcılığı

Ədibin elmi-pedaqoji fəaliyyəti. “Sağlam yollarda” adlı oçerklər kitabı. Yazıçının satirik-yumoristik hekayələri. M.Cəlalın hekayələrində M.Cəlil və Ə.Haqverdiyev ənənələri.

“Bir gəncin manifesti” əsərində Baharın faciəli taleyi.

## 6. Müasir Azərbaycan ədəbiyyatı ən yeni dövrdə

Müstəqillik illərində Azərbaycan ədəbiyyatı və ədəbi prosesin əsas inkişaf istiqamətləri. Çağdaş Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu. Qəhrəmanlıq ənənələrinin tərənnümü.

Bəxtiyar Vahabzadənin fəlsəfi lirikası. Onun yaradıcılığında poema janrı. Lirik “Mən”in vətəndaşlıq mövqeyi. Dramatik yaradıcılığı. Pyeslərində tarixilik və müasirlik.

Nəbi Xəzrinin və Hüseyn Arifin poetik yaradıcılığı. Onların poeziyasında peyzaj lirikası və folklor motivləri.

M. Arazın, Qabilin, Ə.Kürçaylının, N.Həsənzadənin, C.Novruzun, R.Rövşənin, Z.Yaqubun, M.Yaqubun, V.Səmədoğlunun, Hidayətin, M.İsmayılın əsərləri ən yeni Azərbaycan poeziyası konteksində.

İsmayıl Şıxlının yaradıcılığında roman janrı. “Dəli Kür”də milli-mənəvi dəyərlər. Cahandar ağanın həyata və cəmiyyətə baxışı. “Namus qaçağı” müasir Azərbaycan ədəbiyyatının hekayəçılık tarixində milli özünüdərk yönümlü hekayələrdən biri kimi. Öz həyatı ilə bağlı hekayələri: " Mənim rəqibim ", " Qızıl ilan", "Görüş", " Namus qaçagı ", "Təyyarə gecikir ". Müharibə mövzusunda yazdığı hekayələr.

İsa Hüseynovun nəsrinin əsas cəhətləri. Yazıçının yaradıcılığında povest janrı. “İdeal” “Yanar ürək” və “Əbədiyyət” romanları. Ədibin əsərlərində insan konsepsiyası.

Fərman Kərimzadənin yaradıcılığı. Yazıçının hekayələri. Tarixi romanları. “Qarlı aşırım” romanında tarixi məqamlar, insan taleləri, tarixi şəxsiyyətlər. Abbasqulu bəy Şadlinski, Kərbəlayı İsmayıl, Qəmlo və digər obrazların təhlili. “Xudafərin körpüsü” və “Çaldıran döyüşü” romanlarının mövzu və ideyası.

Anarın həyat və yaradıcılığı. Anarın ədəbi qəhrəmanlarının şəxsi və ictimai taleləri. Sənətkarın dramaturgiyasının mövzu və janr xüsusiyyətləri.

Elçinin hekayə yaradıcılığı. Hekayələrinin əsas xüsusiyyətləri. “Mahmud və Məryəm”, “Ağ dəvə”, “Ölüm hökmü” romanları. Elçinin yaradıcılığında folklor motivləri.

Mövlud Süleymanlının yaradıcılığında mifik dünyagörüşü və folklor elementləri.

Ən yeni dövr Azərbaycan ədəbiyyatında tənqid və ədəbiyyatşünaslıq. ədəbi tənqidin əsas nümayəndələri. Çağdaş ədəbi tənqid və ədəbi prosesin qarşılıqlı əlaqəsi.

Əzizə Cəfərzadənin həyat və yaradıcılığı. Həyatı, ədəbi mühiti, fəaliyyəti. “Əzrayıl” adlı ilk hekayəsi. İlk hekayələr kitabı və onun yandırılması. Yaradıcılığında fasilə və onu döğuran səbəblər. “Aləmdə səsim var mənim”, “Vətənə qayıt”, “Yad et məni” adlı şərti trilogiyası.

Məmməd Araz, Xəlil Rza Ulutürk və Nəriman Həsənzadənin poeziyaları. M.Araz poeziyasında milli-mənəvi dəyərlər, azərbaycançılıq ideyaları. Cənub mövzusunda yazdığı şeirləri (“Araz axır” poeması, “Şəhriyar gəlmədi”, “Oxuyan Təbriz”, “Arazın işıqları” şeirləri). X.Ulutürkün poeziyası. Türkçülük məfkurəsi. “Türk sözündən qorxan gəda” şeirində siyasi motivlər. Yaradıcılığında milli azadlıq ideyalarının, milli duyğuların, milli bütövlüyün coşqun ehtirasla tərənnümü.

Hüseyn Arif, Fikrət Qoca və Zəlimxan Yaqubun yaradıcılıqları

H.Arifin şeirlərində təbiət təsvirləri, xalq motivləri. “Turşməzə” adlı şeirlər silsiləsi. Şairin poemaları.

F.Qocanın yaradıcılığı. “Rüşvətxorlar” şeirinin tənqid hədəfləri. Şeirlərində mövzu və problematika. F.Qocanın poemaları. “Azadlıq” poemasının ideya-bədii xüsusiyyətləri. Müəllifin nəsr yaradıcılığı.

Əli Kərimin yaradıcılığı. “İki sevgi” şeirində poetik lövhələr, orijinal üslub və deyim tərzi. Məhəbbət mövzusunda şeirləri. “Qaytar ana borcunu” şeirində ana-övlad münasibətləri

Vaqif Səmədoğlunun şeirlərində modern keyfiyyətlər. Ölüm, Allah, tənhalıq, dərd-kədər motivləri. “7 şeir” adlı ilk mətbu əsəri. “Yoldan teleqram” adlı ilk şeirlər kitabı. “Günün baxtı” kitabına yazıçının münasibəti.

Nəbi Xəzrinin poeziyası. “Dəniz, göy, məhəbbət” silsiləli şeirləri. Dramaturgiyası. “Gecə döyülən qapılar”, “Sən yanmasan”, “Mirzə Şəfi Vazeh”, “Torpağa sancılan qılınc”, “Burla xatun” kimi pyesləri.

C.Novruzun poeziyasında vətəndaş mövqeyi, ümumbəşəri problemlər.

R.Rövşən yaradıcılığında lirik-fəlsəfi üslub, yeni məzmun axtarışları.

Yusif Səmədoğlunun yaradıcılığı. “Qətl günü” romanının ideya-məzmunu, mövzu və problematikası.

İsi Məlikzadənin həyatı, mühiti.

Elçinin nəsri və dramaturgiyası

S.Əhmədlinin “Yanvar hekayələri” silsiləsindən "Qərənfil qan içində", "Giliz xəzəl“, “Dənizdən gələn səda” hekayələri. “Kütlə” romanında müəllif ideyası.

Vidadi Babanlının yaradıcılığı. “Vicdan susanda” romanında Söhrab Günəşli, Vüqar Şəmsizadə, Bəşir Bədirbəyli, Ziya Lələyev kimi obrazların təhlili.

### Əsas ədəbiyyat


1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I cild. Bakı: Elm, 2004, 760 s.
2. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, II cild. Bakı: Elm, 2007, 632 s.
3. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, III cild. Bakı: Elm, 2009, 736 s.
4. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. IV cild. Bakı: Elm, 2011, 860 s.
5. Ağbaba A. Mifologiya (dərs vəsaiti). Sumqayıt, 2008, 60 s.
6. Ağbaba A, Cümənov D. Azərbaycan mifologiyası.Dərslik. Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 182 s.
7. Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. Bakı: Nurlan, 2007, 128 s.
8. Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. II cild (Dərslik). Bakı: Apostrof, 2010, 436 s.
9. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2012, 600 s.
10. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm, 2014, 350 s.
11. Əliyeva N. Sovet dövrü Azərbaycan ədəbiyyatı (1941- 1991). Ali və orta ixtisas təhsili məktəbləri üçün dərslik. Bakı: Elm və təhsil, 2013, 664 s.
12. Həsənqızı A Folklorşünaslığa giriş (dərs vəsaiti),Bakı:Elm və təhsil, 2015, 260 s.
13. Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə, I cild. Bakı: Avrasiya Press, 2005, 566 s.
14. Müasir Azərbaycan ədəbiyyatı (Ali məktəblər üçün dərslik). İki cilddə. I cild. Bakı: Bakı Universiteti, 2007, 504 s.
15. Müasir Azərbaycan ədəbiyyatı (Ali məktəblər üçün dərslik). İki cilddə, II cild. Bakı: Bakı Universiteti, 2007, 564 s.
16. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986, 448 s.
17. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə, Bakı: Turan Nəşrlər evi, 2002
18. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə, Bakı: Elm, 2006, 648 s.
19. Səfərli Ə. Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı: Ozan, 2008, 696 s.
20. Vəliyev V. Azərbaycan folkloru.Bakı: Maarif, 1985, 414 s.


### Əlavə ədəbiyyat


1. Abdullayeva M. Klassik poeziya: Ezoterik xəzinə.Bakı:Bakı Universiteti, 2009, 328 s.
2. Araslı N. Nizaminin poetikası Bakı: Elm, 2004, 194 s.
3. Arzumanlı V. Nizami Gəncəvinin dünya şöhrəti. Bakı: Elm, 1997, 182 s.
4. Bayramov A. Səməd Vurğun: milli və ümumbəşəri. Bakı: Səda, 2006, 316 s.
5. Babayev Y. Anadilli Azərbaycan ədəbiyyatının təşəkkülü və epik şeirin inkişafı (XIII-XIV əsrlər). Bakı: ADPU, 2008, 128 s.
6. Cəfərov N. Molla Pənah Vaqif. Bakı: “Renessans-A” Nəşr Evi, 2017, 240 s.
7. Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: BDU nəşri, 2001, 120 s.
8. Əlibəyzadə E. Azərbaycan xalqının milli mədəniyyət tarixi (islamaqədərki dövr)Bakı: Gənclik, 1998, 524 s.
9. Əlibəyzadə E. Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər). Bakı: Qarabağ,2009, 828 s.
10. Əhmədov B. Sabit Rəhmanın satirası. Bakı: Elm, 1998, 116 s.
11. Əlyeva A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük.Bakı:Elm, 2002, 202s.

12.Əlmirzəyev X. Nizami yaradıcılığında insan konsepsiyası. Bakı: Gənclik, 2001, 354 s.
13. Əfəndiyev T. Hüseyin Cavidin ideyalar aləmi. Bakı: Yazıçı,1985, 306 s.
14. Əsgərli Z. Bakıxanov-Qüdsi. Bakı: Elm, 2015, 176 s.
15. Həbibbəyli İ. Ustad Məhəmmədhüseyn Şəhriyar. Bakı: Elm, 1999, 140 s.
16. Hüseynov R. Məshəti necə varsa. Bakı: Yazıçı, 1989, 336 s.
17. Kəndli-Herisçi Q.Xaqani Şirvani. Bakı:Azərnəşr,1998,204 s.
18. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı: Uğur, 2011, 304 s.
19. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər.Bakı: Elm, 2002, 740 s.
20. Mir Cəlal. Klassiklər və müasirlər. Bakı: Azərnəşr, 1973, 296 s.
21. Mirəhmədov Ə. Məhəmməd Hadi. Bakı: Yazıçı, 1985, 224 s.
22. Namazov Q. Ozan-aşıq sənətinin tarixi. Bakı: Elm və təhsil, 2013, 480 s.
23. Novruzov T. Sabir ədəbi məktəbi.Bakı:Yazıçı, 1992, 215 s.
24. Poetik məclislər. Bakı: Yazıçı, 1987, 526 s.
25. Rəsulzadə M. Əsrimizin Səyavuşu. Bakı: Yazıçı, 1992, 484 s.
26. Rəsulzadə M. Azərbaycan şairi Nizami. Bakı: Təknur, 2011, 520 s.
27. Salamoğlu T. İsmayıl Şıxlının bədii nəsri. Bakı:E.L.NPŞ MMC, 2014, 176 s.
28. Salamoğlu T. Müasir Azərbaycan ədəbiyyatı. Bakı: E.L.NPŞ MMC, 2012, 314 s.
29. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
30. Təhmasib M. H. Azərbaycan xalq dastanları (Orta əsrlər). Bakı: Elm, 1972, 392 s.
31. Tərbiyət M. Danışməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1997, 434 s.
32. Vəliyev K. Elin yaddaşı-dilin yaddaşı. Bakı: Gənclik,1988, 280 s.
33. Yusifov M. Nizamidə azərbaycançılıq. Bakı: Elm və təhsil, 2012, 168 s.

**Sumqayıt Dövlət Universitetinin Filolofiya fakültəsinin Elmi Şurasının 10.07.2019-cu il tarixli iclasnın (protokol №11) qərarı ilə təsdiq üçün tövsiyə olunmuşdur.**